İQTİSADİ İSLAHATLARIN
TƏHLİLİ VƏ KOMMUNİKASİYA
MƏRKƏZİ

Sentyabr 2017

# AZƏRBAYCAN İQTİSADİ İSLAHATLAR İCMALI



# "Doing Business" hesabatı üzrə Azərbaycan Respublikasının mövqeyinin yaxşılaşdırılması ilə bağlı 2017-2018-ci illər üzrə Tədbirlər Planı



"Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı" Dövlət Komissiyasının 2017-ci il 28 iyul tarixli iclasının məntiqi nəticəsi olaraq hazırlanmış ""Doing Business" hesabatı üzrə Azərbaycan Respublikasının mövqeyinin yaxşılaşdırılması ilə bağlı 2017-2018-ci illər üzrə Tədbirlər Planı" dövlət siyasətinin tərkib hissəsi olaraq qəbul edilmişdir.

Azərbaycanda sahibkarlıq sahəsi üzrə son illərdə həyata keçirilmiş intensiv islahat tədbirlərinin davamlılığını və bu istiqamətdə əldə edilmiş nailiyyətlərin beynəlxalq reytinqlərdə öz əksini tapması məqsədilə davamlı tədbirlərin həyata keçirilməsi dövlət siyasətinin tərkib hissəsi olaraq diqqət mərkəzində saxlanılmaqdadır. Bu baxımdan, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamı ilə yaradılmış "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı" Komissiyanın (bundan sonra – Komissiya) fəaliyyətinin tərkib hissəsi olaraq həyata keçirilmiş tədbirlərin xüsusi olaraq vurğulanması yerinə düşər.

Belə ki, görülmüş tədbirlərin məntiqi nəticəsi olaraq, Komissiyanın 2017-ci il 28 iyul tarixli iclasında təsdiq edilmiş ""Doing Business" hesabatı üzrə Azərbaycan Respublikasının mövqeyinin yaxşılaşdırılması ilə bağlı 2017-2018-ci illər üzrə Tədbirlər Planı"nın qəbul olunması Azərbaycanda biznes və investisiya mühitinin əlverişliliyinin, yerli və xarici investorlar üçün cəlbediciliyinin daha da artırılması, rəqabətqabiliyyətliliyinin möhkəmləndirilməsi istiqamətində hədəfyönümlü addımların atılmasında öz müsbət rolunu oynayacaqdır ki, bu da öz növbəsində bu sahə üzrə davamlı dövlət siyasətinin tərkib hissəsi olaraq qiymətləndirilə bilər.

Burada onu da qeyd etmək yerinə düşər ki, sözügedən Tədbirlər Planının effektiv olaraq kompleks şəkildə tətbiq edilməsi beynəlxalq reytinqlərdə, xüsusilə "Doing Business" hesabatında Azərbaycan Respublikasının göstəricilərinin yaxşılaşdırılmasında öz sözünü söyləyəcəkdir.

Bundan əlavə, məlumat xarakterli olaraq, onu da qeyd etmək lazımdır ki, sözügedən Tədbirlər Planının hazırlanması zamanı Komissiyanın fəaliyyətinin tərkib hissəsi olaraq beynəlxalq arenada əsas hesabatlar kimi qəbul olunmuş 5 reytinq agentliyinin Azərbaycan üzrə təqdim etmiş olduqları qiymətləndirmələr nəzərdən keçirilərək analiz edilmişdir. Bu qiymətləndirmələr özündə "Doing Business" hesabatı ilə yanaşı, "Global Competitiveness Report", "Economic Freedom Index", "Global Opportunities Index" və "Global Innovation Report" kimi beynəlxalq hesabatların indikatorları və alt indikatorları üzrə məlumatların təhlilini özündə ehtiva etməkdədir.

Aparılmış təhlillər əsasında təqdim edilmiş məlumatlar 3 istiqamətdə – qanunvericilik indikatorları, praktiki - administrativ tətbiq indikatorları və makro-iqtisadi indikatorlar olaraq qruplaşdırılmış və müxtəlif istiqamətlər üzrə kateqoriyalaşdırılmışdır.

Daha sonra bütün istiqamətlər üzrə beynəlxalq reytinq agentliklərinin metodologiyaları və hər bir alt indikatorun ümumi indikatorlar üzrə xüsusi çəkiləri öyrənilmiş, potensial islahatlar istiqamətində beynəlxalq təcrübə araşdırılmış və müvafiq tədbirlər planı hazırlanaraq Komissiyanın fəaliyyət strategiyasına daxil edilmişdir.

Daha dəqiq qeyd etmək lazım gələrsə, sözügedən Tədbirlər Planını tərkib hissəsi olaraq "Doing Business" hesabatı üzrə 9 istiqamətdə islahat tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulur ki, bunlar aşağıdakı şəkildə qruplaşdırıla bilər:

**I. Tikintiyə icazələrin verilməsi**

1. Tikintiyə icazəyə elektron müraciət sisteminin yaradılması və bu məqsədlə tikintiyə icazənin verilməsində iştirak edən bütün orqanlar arasında elektron məlumat mübadiləsinin təmin edilməsi;
2. Texniki şura vasitəsilə texniki şərtlərin alınması sisteminin tətbiq edilməsi;
3. Tikinitiyə icazə çərçivəsində rəylərin alınması prosedurunun beynəlxalq təcrübə əsasında təkmilləşdirilməsi, rəyi tələb olunan qurumların sayının optimallaşdırılması;
4. Tikintiyə icazənin qanunvericiliyə uyğun olaraq "bir pəncərə" sistemi (texniki şərtlərin, müxtəlif qurumlardan rəylərin və layihələrin ekspertizasının tikintiyə icraat çərçivəsində icra hakimiyyətləri tərəfindən əldə edilməsi) əsasında verilməsinin tam təmin edilməsi və bu mexanizmlə icazə alanların yetərli sayının formalaşdırılması;
5. Bakı şəhəri üzrə baş planın və ərazilərin müfəssəl planlarının hazırlanması, eləcə də həmin

planlarda əhatə olunan ərazilər üzrə mühəndis-kommunikasiya təminatı sistemi, ekoloji geoloji, sanitariya-gigiyena, yanğın təhlükəsizliyi və razılaşdırılmanın tələb olunduğu digər spesifik hallarla bağlı məlumatların təsbit olunması;

6. Tikintisi aparılan obyektlərə dövlət nəzarəti ilə bağlı beynəlxalq təcrübənin araşdırılması və nəzarətin təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması;

7. Tikinti obyektinin istismara qəbulu prosesində "bir pəncərə" prinsipinin tətbiq edilməsi;

8. Şəhərsalma və tikinti qanunvericiliyinin tətbiqi ilə bağlı tikinti fəaliyyəti subyektlərinin, o cümlədən tikintiyə icazə verən və tikintiyə dövlət nəzarətini həyata keçirən orqanların nümayəndələri üçün müvafiq seminarların və təlimlərin keçirilməsi.

## II. Elektrik təchizatı şəbəkələrinə qoşulma

1. Texniki Şura vasitəsilə texniki şərtlərin alınması sisteminin işə salınması və yetərli istifadəçi sayının formalaşdırılması;

2. Texniki şərtlərin alınması ilə bağlı elektron müraciət sisteminin formalaşdırılması;

3. Elektrik enerjisi təchizatında kəsintilərlə bağlı mexanizmin təkmilləşdirilməsi (kəsintilərə görə limitlərin müəyyənləşdirilməsi, kəsintiyə görə istehlakçıya kompensasiyaların, təchizatçıya cərimələrin müəyyən edilməsi);

4. Elektrik enerjisi paylama sistemlərinin xəritəsinin yaradılmasında Coğrafi İnformasiya Sisteminin (GİS) tətbiq edilməsi;

5. Elektrik təchizatı şəbəkəsinə qoşulma ilə bağlı xərclərin optimallaşdırılması üzrə təhlillər aparılması və müvafiq təkliflərin hazırlanması;

6. Tənzimləyici tərəfindən elektrik təchizatçılarının xidmətlərinə dair minimum keyfiyyət standartlarının tətbiq edilməsi.

## III. Əmlakın qeydiyyatı

1. Elektron çıxarış sistemindən istifadə üzrə yetərli istifadəçi sayının formalaşdırılması;

2. Bakı şəhərində kadastr və elektron uçot işlərinin sürətləndirilməsi;

3. Hüquqların dövlət qeydiyyatı ilə bağlı ərizələrin sürətləndirilmiş qaydada 1 iş günü müddətində icrasının təmin edilməsi məqsədi ilə müvafiq mexanizmin yaradılması.

## IV. Kreditlərin alınması

1. Özəl kredit bürolarının yaradılması və qeydiyyatının təmin edilməsi;

2. Özəl kredit bürosunda borcluların yetərli əhatə dairəsinin formalaşdırılması;

3. Kredit bürosunun məlumat bazasına pərakəndə ticarət və kommunal xidmət müəssisələrinin məlumatlarının inteqrasiyasının təmin edilməsi;

4. Yeni özəl kredit bürosunda borcluların məlumatları əsasında onların kredit reytinqinin hesablanması ürzə potensialın yaradılmasına dəstək göstərilməsi;

5. Daşınar əmlakın yüklülüyü reyestrinin yaradılması, "Doing Business" sualları baxımından mexanizmin təkmilləşdirilməsi.

## V. Kiçik investorların maraqlarının qorunması

1. Qanunvericiliyin "Doing Business" sualları baxımından yenidən təhlil edilməsi və təkmilləşdirilməsi;

2. Kiçik investorların hüquqlarının qorunması ilə bağlı qanunvericiliyin izahı istiqamətində ictimai tədbirlərin təşkil edilməsi.

## VI. Vergilərin ödənişi

1. Vergi Məcəlləsinə edilmiş dəyişikliklərin "Doing Business" tələbləri baxımından dəyərləndirilərək Vergi Məcəlləsinə əlavə və dəyişikliklərin təklif edilməsi;

2. Vergilərin ödənilməsi ilə bağlı müddətlərin qısaldılması məqsədilə elektronlaşma səviyyəsinin yüksəldilməsi;

3. ƏDV-nin geri qaytarılması mexanizminin təkmilləşdirilməsi;

4. Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının vergi ödəyicisinə qaytarılması üzrə müraciətlərin elektronlaşdırılması.

## VII. Sərhəddə ticarət

1. Yaşıl dəhliz sistemindən istifadə üzrə yetərli istifadəçilərin formalaşdırılması;

2. Gömrük rəsmiləşdirilməsi üçün tələb olunan sənədlərin sayının azaldılması;

3. Azexport.az portalı vasitəsilə ixrac üçün lazım olan sertifikatların elektron formada alınması sisteminin tam işə salınması və yetərli istifadəçilərin formalaşdırılması;
4. İxracla bağlı ödənişlərin elektron qaydada ödənilməsi sisteminin yaradılması;
5. Gömrük bəyannaməsi ilə birgə təqdim edilməli olan sənədlərin (uyğunluq sertifikatı, mənşə sertifikatı, fitosanitar sertifikat, gigiyenik sertifikat və s.) həqiqiliyinin gömrük orqanları tərəfindən yoxlanılması məqsədilə həmin sənədləri vermək səlahiyyəti olan qurumların elektron baza serverlərinə müvafiq qaydada giriş hüququnun təsbit edilməsi;
6. Dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən və qanunvericiliklə aidiyyəti dövlət orqanından müvafiq qaydada xüsusi icazə, rəy və lisenziya (xüsusi razılıq) alınması müəyyən edilmiş mallar və fəaliyyət növləri üzrə qeyd olunan sənədlərin elektron qaydada gömrük orqanları ilə mübadiləsi imkanlarının yaradılması;
7. Gömrük ödənişləri üzrə preferensial güzəştlərin əldə edilməsi məqsədləri üçün gömrük orqanlarına təqdim edilən malların mənşəyini təsdiq edən sənədin (mənşə sertifikatları) həqiqiliyinin yoxlanılması məqsədilə müvafiq qaydada imkanların (elektron bazaya giriş hüququnun verilməsi) yaradılması.

## VIII. Müqavilələrin icrasının təmin edilməsi

1. İnzibati-iqtisad məhkəmələrinə onlayn müraciət sisteminin yaradılması və yetərli istifadəçi sayının formalaşdırılması;
2. Məhkəmə qərarlarının elektron dərc edilməsi ilə bağlı qanunvericiliyə müvafiq dəyişikliklərin edilməsi;
3. Mübahisələrin alternativ həlli mexanizmlərinin qurulması;
4. "Doing Business" sualları baxımından qanunvericiliyin yenidən təhlil edilməsi və təkmilləşdirilməsi

## IX. Müəssisələrin bağlanması

1. İnzibati Qanunvericiliyin "Doing Business" sualları baxımından yenidən təhlil edilməsi və təkmilləşdirilməsi.

Sonda onu da qeyd etmək yerinə düşər ki, sözügedən Tədbirlər Planının bütün qurumlar tərəfindən effektiv şəkildə həyata keçirilməsini təmin etmək məqsədilə vaxt limitləri nəzərdə tutulmuşdur ki, bu "Doing Business" hesabatı üzrə 2018-ci il 31 mart tarixinə təsadüf edir. Belə ki, burada əsas məqsəd görüləcək bütün tədbirlərin "Doing Business" qiymətləndirmə komandası tərəfindən tam şəkildə nəzərə alınması üçün son tarixədək bütün işlərin yekunlaşdırılmasının təmin edilməsi prosesini həyata keçirməkdən ibarətdir.


www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az
Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073
info@ereforms.org
(+994)12 5213318
/ iqtisadiislahat